Zəngilanın azad olunmasından 2 il keçir

# Zəngilanın azadlığa qovuşması – Zəfər tariximizin parlaq səhifəsi





**Ermənistan işğal dövründə Qarabağ və Şərqi Zəngəzurun bütün yaşayış sahələrində olduğu kimi, Zəngilan rayonunda da salamat bir bina, infrastruktur saxlamayıb, bütün tikililəri, qurğuları dağıdıb, yerlə bir edib, maddi-mədəni irsimizin izlərini belə, vəhşiliklə silib. Yeraltı, yerüstü sərvətlərimizi talayıb.**

Zəngilan düşmən əsarətində olduğu dövrdə təxmini hesablamalara görə, rayona 3,4 milyard ABŞ dolları ziyan dəyib. Yardımçı təsərrüfat sahələri nəzərə alınmadan, əhaliyə məxsus 11 min yaşayış evi, 150 şəxsi maşın, 43 min qaramal, 92 min qoyun-кeçi, 265 min ev quşu, 1600 arı ailəsi düşmənin əlinə keçib.

Rayonda sənaye əhəmiyyətli ehtiyatları 6,5 ton qızıl və 3 min ton mis təşkil edən Vejnəli qızıl yatağı, 107 hektar sahəsi olan Bəsitçay Dövlət Təbiət Qoruğu, Arazboyu yasaqlıq, 4 təbiət abidəsi, 10 min hektar xüsusi mühafizə altında saxlanılan Araz palıdı meşəsi, 12 min 864 hektar dövlət meşə fondu talanıb.

Zəngilanda Oxçuçay bu gün dünyada təbii fəlakət zonası kimi tanınır. Ermənistanın Qafan və Qacaran dağ-mədən sənayesinin tullantıları ilə hədsiz dərəcədə çirkləndirilən bu çay sanki sənaye tullantılarının kollektoru rolunu oynayır. Adları çəkilən müəssisələrdə sular təmizlənmədən birbaşa çaya axıdıldığı və çirklənmə səviyyəsi dəfələrlə normadan artıq olduğu üçün onun su ehtiyatlarının ölkə ərazisində istifadəsi yararsız hesab edilir.

Prezident İlham Əliyev Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə düşmənin yaratdığı bu ağrılı problemə toxunaraq, çaydan götürülən analizlərin zəhərli maddələrin həcminin normadan dəfələrlə çox olduğunu göstərdiyini qeyd edib.

Ölkə rəhbəri düşmənin xarici şirkətlərlə birlikdə Vejnəli qızıl yatağını taladığını, qanunsuz istismar etdiyini də diqqətə çatdırıb: “O xarici şirkətlərin məhkəməyə verilməsi prosesinə start verdik, yaxın gələcəkdə eşidəcəksiniz. Onların bu işdən boyun qaçırmaq cəhdləri demək olar ki, imkansızdır. Çünki hər şey göz qabağındadır. Başqa ölkənin ərazisində qanunsuz işlər görüb, buradan qızılı qanunsuz olaraq daşıyıb və dünya bazarlarında satıb. Biz onlarla əlbir olanları da məsuliyyətə cəlb edəcəyik. Beynəlxalq hüquqşünasları da cəlb etdik”.

## Qələbədən sonra intibah dövrü

Zəngilan işğaldan azad edildəndən dərhal sonra Prezident İlham Əliyev düşməndən təmizlənən bütün ərazilərdə olduğu kimi, bu rayonda da bərpa-quruculuq layihələrinin reallaşdırılmasını diqqət mərkəzində saxladı. Dövlətimizin başçısının rəhbərliyi ilə erməni barbarlığının qurbanı olan Zəngilanda tikinti işləri geniş vüsət aldı, yüksək texnologiyaların tətbiqinə start verildi, Qarabağ bölgəsinin “yaşıl enerji” zonasına çevrilməsi istiqamətində önəmli tədbirlərin gerçəkləşdirilməsinə başlanıldı.

Dövlətimizin başçısı ötən il oktyabrın 20-də Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı bildirdi ki, bu gün Zəngilan tarixinin yeni şərəfli mərhələsini yaşayır, şəhərin Baş planı hazırlanır. Azad edilmiş bütün torpaqlarda birinci “Ağıllı kənd” layihəsi məhz Zəngilan rayonunda həyata keçirilir.

Dövlətimizin başçısı həmin gün Zəngilanda rayonun Ağalı kəndində həyata keçirilən “Ağıllı kənd” layihəsi çərçivəsində görülən işlərlə, Zəngilan Beynəlxalq Hava Limanının tikintisi ilə, Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə tanış oldu, “Azərişıq” ASC-nin Zəngilan Rəqəmsal Yarımstansiyasının təməlqoyma mərasimində və “Azərenerji” ASC-nin 110/35/10 kV-luq “Zəngilan” yarımstansiyasının açılışında iştirak etdi.

keçirib, ermənilər tərəfindən bir çox hissəsi dağıdılan Bəsitçay qoruğunda çinar ağacları əkib, hava limanının təməlini qoyub.

Ötən müddətdə işğaldan qurtulan digər torpaqlarımızda olduğu kimi, bura da geniş tikinti-quruculuq meydanına çevrilib. Gözəl, müasir Zəngilan şəhərinin qurulmasına start verilib. Ağalı kəndində “Ağıllı kənd” layihəsi uğurla gerçəkləşdirilərək zəngilanlıların ixtiyarına verilib.

Bu gün Zəngilan ölkəmizin nəqliyyat-logistika mərkəzinə çevrilir. Rayonda tezliklə beynəlxalq hava limanının istifadəyə veriləcəyi gözlənilir.

Yeri gəlmişkən, Zəngilanın yenidən qurulması və bərpası BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri nəzərə alınmaqla gerçəkləşdirilir. Burada həmçinin mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi üçün Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə köhnə Zəngilan şəhər məscidinin əsaslı şəkildə təmiri həyata keçirilir, yaxınlığında isə şəhərin ümumi əhali sayını nəzərə alaraq, yeni daha böyük bir məscidin tikintisi aparılır. Həmçinin Zəngilanda İşğal, Zəfər muzeyləri komplekslərinin və Memorial Parkın tikintisi də planlaşdırılır.



Bütün bunlar ölkə rəhbərinin işğaldan azad olunan bütün rayonlarda olduğu kimi, Zəngilanda da bərpa-quruculuq layihələrinin reallaşdırılmasını diqqət mərkəzində saxladığını göstərir. Dövlətimizin başçısının rəhbərliyi ilə hazırda erməni barbarlığının qurbanı olan rayonda tikinti işlərinin geniş vüsət alması, yüksək texnologiyaların tətbiqinə start verilməsi, Qarabağ bölgəsinin “yaşıl enerji” zonasına çevrilməsi istiqamətində önəmli tədbirlərin gerçəkləşdirilməsi də bunun parlaq nümunəsidir.

Zəngilan işğaldan azad edildikdən sonra daim dövlət başçımızın diqqət mərkəzində olub. Ölkə rəhbəri hər dəfə rayona gəlişində burada mövcud vəziyyəti yerində nəzərdən

Zəngilan ərazisindən keçən Horadiz–Ağbənd dəmir yolu xətti 2023-cü ildə, Əhmədbəyli–Horadiz–Mincivan–Ağbənd avtomobil yolu isə 2024-cü ildə yekunlaşacaq.

**V.BAYRAMOV,**
**“Xalq qəzeti”**